# Azərbaycan-Dağıstan əlaqələri yeni inkişaf mərhələsindədir

“Azərbaycanda təqribən 700-dən çox Rusiya kapitallı şirkət fəaliyyət göstərir. Ölkələrimiz arasında uğurlu investisiya əməkdaşlığı həyata keçirilir. İkitərəfli münasibətlərin inkişafında dövlət başçılarının rəsmi səfərləri və görüşləri böyük rol oynayır”.



Bu fikirləri Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisinin sədri Xızrı Şıxsəidovun başçılıq etdiyi nümayəndə heyəti ilə dünən keçirilən görüşdə Milli Məclisin Sədri Oqtay Əsədov söyləyib.

Sədr qeyd edib ki, Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və birgə səyləri nəticəsində iki ölkə arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu əlaqələrin qurulmasında Dağıstanın da xüsusi rolu var. Azərbaycanla Dağıstan arasında çox qədim dostluq və qonşuluq münasibətlərinin olduğunu söyləyən Oqtay Əsədov bu səfərin əlaqələrin inkişafına mühüm töhfə verəcəyini vurğulayıb.

Milli Məclisin Sədri parlamentlərarası münasibətlərin də yüksələn xətlə inkişaf etdiyini söyləyərək qeyd edib ki, bu gün Azərbaycan ilə Dağıstan arasındakı münasibətlərin daha da gücləndirilməsi üçün yeni imkanlar mövcuddur.

Azərbaycan və Dağıstan xalqlarının uzun əsrlərdən bəri sülh və dostluq-qardaşlıq şəraitində yaşadıqlarını söyləyən Xalq Məclisinin sədri Xızrı Şıxsəidov ölkəsinin Azərbaycanla yaxşı münasibətlərə xüsusi önəm verdiyini diqqətə çatdırıb. Bildirib ki, əlaqələrin daha da inkişaf etdirilməsi üçün qarşılıqlı səfərlərin böyük əhəmiyyəti var. Bu cür görüşlərin keçirilməsi əməkdaşlığın daha da genişlənməsinə töhfəsini verəcək. Eyni zamanda münasibətlərin genişlənməsində parlamentlərin rolu xüsusi qeyd olunub.

Qonaq Rusiya-Azərbaycan arasındakı əlaqələrə toxunaraq ictimai-siyasi və humanitar sahələrdəki münasibətlərin nümunə olduğunu söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

***R.BAXŞƏLİYEV,***
***F.BAĞIROV (foto),***
***“Azərbaycan”***

Azərbaycan.- 2019.- 13 mart.- S. 3.